ISSN-1038



# LANGUAGE AND LİTERATURE
# ЯЗЫК И ЛИТЕРАТУРА
# DİL VƏ ƏDƏBİYYAT

BEYNƏLXALQ ELMİ – NƏZƏRİ
JURNAL

5(65)

Bakı -2008

İSSN 1038

# DİL VƏ ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

**Beynəlxalq elmi – nəzəri jurnal**

Elektron versiyası Электронная версия

5(65)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

BAKI - 2008

*DİLÇİLİK - ЯЗЫКОЗНАНИЕ*..........5-91
S. MUSTAFAYEVA."Oğuz" etnoniminin linqvistik izahı və Azərbaycan etnoponimiyasında yeri.......... 5
K. MAQSUDOVA. Tərcümədə dinamik ekvivalentlikdən istifadə.......... 7
E. HÜSEYNBALAYEVA.İbri dilinin inkişaf tarixi.......... 9
A. MƏMMƏDOVA. «Dədə Qorqud kitabı»nın dilində söz yaradıcılığı.......... 11
N. HACIYEVA. Azərbaycan nağıllarında elliptik cümlələr ekspressivliyi yaradan sintaktik vasitə kimi.......... 13
С.МАМЕДОВА. Морфологические категории субстантивированных прилагательных в русском и азербайджанском языках.......... 16
С.КАЛАНДАРОВА. Формирование и распространение окказиональных слов в разных типов аббревиации в современном русском языке.......... 18
A. MƏMMƏDOVA. İkinci dərəcəli cümlə üzvlərinin dəqiqləşdirilməsi.......... 20
İ. MƏHƏRRƏMOVA. Azərbaycan dilinin sosial differensasiyası məsələləri.......... 22
B. SƏMƏDOV. Taksis vəziyyətində eyni zamanlılığın / müxtəlif zamanlılığın aktual olmadığı halda qeyri – müəyyən zaman münasibətləri.......... 25
А.ФАРЗАЛИЕВА. Паремии, построенные по модели определенно-личных предложений.......... 27
Z. ŞAHBAZOVA. «Kim», «nə» sual əvəzliklərinin leksik- semantik və morfoloji xüsusiyyətləri.......... 30
A. ƏLİYEVA. Təbii dilin istifadəsi ilə mətnlərin işlənməsində qeyri-səlis məhdudiyyətlərin təbliğ edilməsi barədə.......... 33
N. ƏLİYEVA. Sadə nəqli cümlə haqqında mövcud elmi-nəzəri müddəalara dair.......... 35
Ə. MƏMMƏDOVA. Fars dilinin morfonologiyasına dair bəzi mülahizələr.......... 37
F. HƏSƏNOVA. Ərəb atalar sözləri və zərbi-məsəllərində antonimlər.......... 40
F. NƏSİROVA. Fars atalar sözləri və zərbi-məsəllərində ritm yaradan elementlər.......... 42
С. АМИРОВА. Функция метафоры в организации Бунинского текста.......... 45
K.HÜSEYNOV. Bədii təyin və obrazlılıq.......... 47
G. ABBASOVA. «Kitabi –Dədə Qorqud» boylarının yazılma tarixi məsələsinə mətn dilçiliyi prizmasından bir baxış.......... 49
S. ƏLİYEVA. Həyat və ölüm anlayışları ilə əlaqədar işlənən frazeoloji birləşmələr.......... 51
В. НАСИБОВ. Принципы семантической организации производных с вершиной $a_3$ в русском и азербайджанском языках.......... 53
А. БАЙРАМОВА. Оппозиционная редукция видовременных форм глагола в английском языке.......... 56
Н. ГЕОКЧАЙСКАЯ. Зарождение месопотамской письменности и первые ее шаги.......... 57
M. QURBANOVA. «Ayaq» sözünün polisemantikası.......... 59
KARIM NAZARI. Government–binding theory.......... 61
G. ŞİRİNOVA. Antroponimikada soy adı kateqoriyası.......... 62
R. HÜSEYNOVA. İngilis dilində tabelilik bağlayıcıları ilə yaranan mürəkkəb cümlələr.......... 64
Z. HÜSEYNOVA. Tipoloji tədqiqatın nəzəri məsələləri.......... 66
H.HÜSEYNOVA. Mir Cəlalın bədii əsərlərində fonetik dialektizmlə.......... 69
А. ШИРИНОВ. Nasîruddin Tûsî'ye göre varlikla yokluk arasinda üçüncü bir kategorinin imkâni: ahval.......... 70
С.КУЛИЕВА. Модальные глаголы в современном арабском литературном языке.......... 72
E. ALLAHVERDİYEVA. Tərcüməşünaslıq elmi və onun tərkib hissələri.......... 74
A. MƏMMƏDOVA. Müstəqillik illərində Azərbaycan dilçiliyinin inkişaf perspektivləri.......... 77
F. İSMAYILOVA. Nitq aktlarında bəzi fellərin konsituasiya ilə bağlı işlənmə xüsusiyyətləri.......... 79
М. ШУКЮРОВА. Ономатопоэтическая лексика в японском языке.......... 81
A. ABBASOV. İngilis atalar sözləri və zərbi-məsəllərin tərtibi prinsipləri.......... 83
S. İSGƏNDƏROVA. Müxtəlif sistemli dillərdə təsirli və təsirsiz fellər.......... 85
G. QURBANOVA. Oğuz qrupu türk dillərində şəxs əvəzlikləri.......... 87
M. CAVADOVA.Oğuz qrupu türk dillərində frazeologizmlər.......... 89

*ƏDƏBİYYATŞÜNASLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ*..........92-170
QASEM SAFI. An interpretation on Sadi's Golestan.......... 92
F. ŞEYXLUVƏND, R.SADEGY NIRY. Bədi Nəhcülbəlagənin Xotbələrində.......... 93
S. RƏHMANİ. Cənubi Azərbaycan nəsrinin atası.......... 96
Ş. ABDULLAYEVA. Şeyx Fəridəddin Əttar Nişaburinin ədəbi irsi.......... 101
L. ƏLİKRAM. Orta əsrlər klassik Azərbaycan şeirində məcaz və onun növləri.......... 104
С. МЕХДИЕВА. Верующие женщины Лескова.......... 106
A. BAYRAMOV.Tariximizdən səhifələr Səməd Vurğun yaradıcılığında.......... 108
A.ABASOV. O, əsl şair idi.......... 110
Y. BABAYEV. XIV əsr ana dilli poeziyamızda xalq dilinin, heca vəznli şeirin mövqeyi və ədəbiyyat.......... 114
Р. БАГИРОВ. "Ислам" Н.Тихонова и коранические традиции в русской поэзии.......... 118
PİŞGƏR ƏHƏD (PH.D). Cahiliyyə dövrü ərəb poeziyası və "Müəlləqat".......... 120
М. АЛЬБУРЗИ. Сюжетно-композиционное построение повести В.Тендрякова «Расплата».......... 123
К. КАСУМОВА. Эфемерность чистых образов в современной литературе.......... 124
P. KƏRİMOV. XVII əsr Azərbaycan lirikasında vətənpərvərlik motivləri.......... 126
А. МАМЕДОВА. Русскоязычная проза Азербайджана.......... 128
S. MƏMMƏDBƏYOVA. Səyahətnameyi-İbrahimbəy" romanında monarxiya usul-idarəsinin tənqidi.......... 130
Г. САЛМАНОВА. Роман Анара «Без вас». Проблема семантико-стилистических несоответствий в авторском переводе.......... 131
S. ABDULƏZİZOVA. Viktor Hüqonun əsərlərində romantizm.......... 133
B. MƏMMƏDOVA. Balaş Azəroğlunun poeziyasında uşaq dünyasının tərənnümü.......... 135
N. SADIQZADƏ. Cənubi Azərbaycan mövzusunda yeni tədqiqlər.......... 137
Z. SALMANOVA. S.M.Qənizadənin təbdil və tərcümələri.......... 141
A. SÜLEYMANOV. "Kitabi-Dədə Qorqud" dastanında totem.......... 143
A. ÜLVİ. Həmzə Həkimzadə Niyazinin ədəbi irsi.......... 145
X. QOCAYEVA. Aşıq sənətinin yaranması tarixindən.......... 147

Ə. RADİPUR. Gəlmişəm məzlumun ahın çevirəm tufanə........ 148
Y. BABAYEVA. Romanticism as a literary movement in world literature........ 150
J. HÜSEYNOVA. Abbas Səhhət şeirlərində vətənin tərənnümü........ 152
Ş. SOFİYEVA. Fərman Eyvazlının "Qaçaq Kərəm" romanında milli xarakterin təcəssümü........ 155
Ü. HƏBİBBƏYLİ. Tomas Murun «Atəşpərəstlər» poemasının ideya-bədii təhlilinə dair........ 157
G. ƏLİYEVA . Füzulinin lirikası tarixilik müstəvisində........ 160
L. İMAMƏLİYEVA. XI əsrdən XIX əsrin sonlarınadək Azərbaycan ədəbiyyatında mənzum hekayət və hekayələr........ 164
N. HAQVERDİYEVA. U. Folknerin yaradıcılıq metodu........ 168

*PEDAQOGİKA-ПЕДАГОГИКА*........171-218
И. АЛИЕВА. Роль письма в системе обучения иностранному языку вне языковой среды........ 171
Ş. SALAMOVA. Təlim-tərbiyə təhsilin bünövrəsidir........ 173
R. ƏŞRƏFOV. «Azərbaycan dili» proqram və dərsliklərində ümumiləşdirici dərslərin yeri və imkanları........ 175
G. ƏLIXANOVA. Uşaqların yaşıdları ilə ünsiyyət mədəniyyətinə dair........ 177
Ə. ŞƏRİFOVA. Mərdan Muradxanovun pedaqoji irsində ailə tərbiyəsi məsələləri........ 181
A. MƏMMƏDOVA. Azərbaycan müəllimlərinin I və II qurultayının materiallarında yaşlı əhalinin təhsili məsələləri........ 182
Ş. ABASOVA. Ü.Hacıbəyovun rus dilinin tədrisi haqqında........ 184
A. ƏLİŞ OĞLU. Azərbaycan dili dərslərində qrammatik təhlil priyomlarından istifadə........ 186
Ə. CAVADOV. Orta məktəbdə sintaksis və durğu işarələrinin tədrisi........ 189
T. QULİYEVA. Vətənpərvərlik mövzularına həsr edilmiş inşaların əhəmiyyəti........ 192
A. ЗЕЙНАЛОВА. Методика проведения работы по усвоению нового материала........ 194
M. İSMAYILOVA. Dilin tədrisində sözlərarası semantik əlaqələrdən istifadənin xüsusiyyətləri haqqında........ 195
S. ABBASOVA. Düzgün yazı təlimatının elmi əsaslarına dair yeni baxış........ 197
Р. ИМАНОВА . Способы передачи фразеологических оборотов и идиоматических выражений в русских переводах в национальной аудитории........ 200
G. NOVRUZOVA.Tələbənin ifaçılıq hazırlığında müşaiyət və transpozisiya vərdişləri........ 202
Ş. NƏZƏROVA. «New headway» ingilis dili dərsliyinin dəyərləndirilməsi........ 203
F.RZAYEVA. Xarici dillərin tədrisində çalışmaların rolu və yeri haqqında........ 205
Э. КЕРИМОВ, Х.ТАГИЕВА. Лингвокультурологические аспекты преподавания русского языка........ 208
T. ABBAS. Azərbaycanda beynəlxalq akademik mobillik konsepsiyasının formalaşdırılması və həyata keçirilməsi problemi........ 210
А. ЭФЕНДИЕВА. Особенности структурирования текста культуроведческого характера в учебных целях........ 212
F. HİDAYƏTOVA. İbtidai siniflərdə musiqi vasitəsilə «ana dilini qorumaq» hisslərinin tərbiyəsinin imkanları........ 214
P. ƏLİYEV. Hürufiliyi təbliğ edən şeirlərin mənimsədilməsi........ 216

PSİXOLOGİYA- ПСИХОЛОГИЯ........219-220
F.ƏKBƏRİAN.Yeniyetmə və onun dini dəyərlərlə yaşaması........ 219
*JURNALİSTİKA-ЖУРНАЛИСТИКА*........221-229
K. YUSİFOVA. Sənədli telefilmin xüsusiyyətləri........ 221
F. TALIBOV. Azərbaycan diasporuna dair yazıların forma və janr xüsusiyyətləri........ 223
Q. HÜSEYNOVA. Naxçıvanda demokratik mətbuatçılıq ənənələrinin inkişafında «Ağrıdağ» qəzetinin yeri və rolu 225
E. NİFTƏLİYEV. M.Ə.Rəsulzadə və «Təkamül» qəzeti........ 227
*İLAHİYYAT–ТЕОЛОГИЯ*........230-235
S. MUSAYEV. Islamda dözümlülük və müasir dünya gerçəkliyi........ 230
Ş. ŞƏRİFOV. Şeyxülislam Axund Məhəmmədhəsən Mövlazadə Şəkəvinin «Kitabül-bəyan fi təfsiril-qur'an» əsərində müqəttəə hərflərin təfsiri........ 231
B. HƏSƏNOV. Sovyet diş politikasında Azərbaycan din adamları........ 233
*KİTABŞÜNASLIQ-КНИГОВЕДЕНИЕ*........236-243
R. QARDAŞOV. Respublika elmi kənd təsərrüfatı kitabxanasında biblioqrafik işin ümumi təşkili məsələləri........ 236
E. MƏMMƏDOV. H.Əliyevin Azərbaycan kitabxana işinin inkişafındakı rolu........ 238
E. BEHBUD. Sahə ensiklopediyalarının tərtibi........ 241
*MƏRUZƏLƏR- ДОКЛАДЫ*........244-253
L. AZUNDOVA. Elçinin hekayələrində bədii şərtilik........ 244
A. ƏLƏSGƏROVA. «Kitabi- Dədə Qorqud» dastanında say və onun mövqeyi........ 246
Г. ГУРБАНОВА. Творчество Орхана Вели и его «Эпитафия»........ 247
Г.ТЕЙМУРОВА. Речевая модель как единица обучения русскому языку студентов национальных групп технического вуза........ 248
Д. АЛИЕВА. Тема «скупости» в мировой литературе........ 249
S.RZAYEVA. Y.Seyidov "H.Əliyevin dili və dil siyasəti" haqqında........ 250
A.ABUŞOVA. Süleyman Rüstəmin «Təbrizim» şeirindən etüd........ 252
Ş. KAZIMOVA. Şəxsiyyətin hərtərəfli inkişafının əhəmiyyəti........ 252

*ELANLAR-ОБЪЯВЛЕНИЯ*........254

Yığılmağa verilmişdir: 12.08.08.
Çapa imzalanmışdır : 18.08.08
Şəhadətnamə № 27
Rezoqraf çapı.
Tirajı 1000. Qiyməti pulsuz.
Lisenziya: Seriya AB № 022471
«Laman nəşr-poliqr. MMC»-də çap olunmuşdur.

10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra, Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, leytenantdan general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq), SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi məktəbində də ali təhsil almışdır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. İyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.

20 yanvar 1990-cı ildə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar Heydər Əliyev ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalqın çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyunun 24-dən isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol öz başlanğıcı, əslində, 1969-cu ildən – məhz onun hakimiyyətə gəlişindən götürülmüşdür. Onun yorulmaz fəaliyyəti nəticəsində 1970-1985-ci illər baş verən dəyişikliklərin miqyasına, ictimai və iqtisadi sahələrdə islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında ən parlaq səhifələri yaranmışdır.

Onun ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlanılmışdır.

Heydər Əliyevin hakimiyyətə həm birinci gəlişi, həm də ikinci gəlişi zamanı həyata keçirdiyi taleyüklü məsələləri yığcam, konkret olaraq aşağıdakı şəkildə sıralaya bilərik: 1. XX əsrin 70-ci illərindən başlayaraq, Azərbaycan dilinin fəaliyyət dairəsini genişləndirmək üçün konkret addımlar atdı. 2. Gəncliyin inkişafı üçün təhsilin inkişafına xüsusi fikir verdi, milli hərbçi kadrların hazırlanmasına diqqəti artırdı. 3. Millətin hərtərəfli inkişafının pasportu adlandırılan 10 cildlik ensiklopediyanı nəşr etdirdi. 4. Cənubi Azərbaycan məsələsi ilə əlaqədar, Ədəbiyyat İnstitutunda onun göstərişi ilə şöbə açıldı, bu sahədə elmi tədqiqatların aparılmasına şərait yaradıldı. 5. Milli Ordunun formalaşdırılması. 6. Milli dövlətçiliyin ideya əsasını yaratdı. 7. Neft strategiyasının həyata keçirilməsi. 8. 1994-cü ildə Ermənistan-Azərbaycan münaqişəsində genişmiqyaslı və davamlı atəşkəsə nail olmuşdur. 9. Düşmənin xeyrinə, xalqımızın zərərinə olan dövlətçiliyə qəsdlərin qarşısı alındı, sabitlik yaradıldı. 10. Xarici ölkələrdə yaşamaq məcburiyyətində qalmış dünya azərbaycanlılarının birlik və həmrəyliyini yaratmışdır. 11. Ləğv edilmək ərəfəsində olan Elmlər Akademiyasının inkişafına qayğı göstərilərək, bu təşkilat Milli Elmlər Akademiyasına çevrildi. 12. Latın əlifbasının bərpası. 13. Dövlət dilinin tətbiqinin genişləndirilməsi. 14. Bəşər sivilizasiyasının formalaşmasında əvəzsiz xidmətləri olan kitabxanaların Azərbaycanda baxımsız vəziyyətdə olmasını aradan qaldırmaq və onları xalqın milli sərvətinə çevirmək məqsədi ilə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq etməsi.

Ümummilli liderimiz Heydər Əliyevin böyük xidmətlərinin bir qismini əhatə edən bu maddələrdən sonra onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətindən bəhs etsək, göstərməliyik ki, bu xarici siyasətin əsasında, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

H. Əliyev elmi inkişafla əlaqədar çıxışlarının

birində demişdir: "Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin arasında xüsusi yer tutur". O, dəfələrlə belə insanları xüsusi dövlət mükafatları, orden və medallar ilə təltif edir, onların əməyini və şəxsiyyətlərini yüksək qiymətləndirirdi. BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A. A. Xələfov belə zəhmətkeş alimlərdən biridir. Heydər Əliyev bu qocaman alimi 11 fevral 2000-ci ildə «Şöhrət» ordeni ilə təltif etmiş, 24 dekabr 2001-ci ildə isə ona «Əməkdar elm xadimi» fəxri adının verilməsi haqqında fərman imzalamışdır. Abuzər Xələfov 2006-cı ildə işıq üzü görən «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» adlı monoqrafiyasında dahi öndər haqqında belə qeyd edir: «Kitabxana işinin qocaman mütəxəssislərindən, yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlayan ali təhsil işçilərindən biri kimi böyük iftixar və minnətdarlıq hissi ilə demək istəyirəm ki, ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında H. Əliyevin xidmətləri əvəzedilməzdir. O, respublikada rəhbərliyə gəldikdən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirməyə başladı. Azərbaycanın kənd rayonlarında yüksək ixtisaslı kadrların olmamasını nəzərə alan H. Əliyev qısa bir zaman içərisində Bakı Dövlət Universitetində fəaliyyət göstərən Kitabxanaçılıq fakültəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, qəbulun artırılması üçün xüsusi göstəriş vermişdi. Həmçinin H. Əliyevin göstərişi ilə Kitabxanaçılıq fakültəsinə 50 ildən çox müsabiqədənkənar qəbul planı verilmişdi. Bu planda ayrı-ayrı rayonlarla bərabər azsaylı xalqların nümayəndələrinin qəbulu da nəzərdə tutulurdu. Bu tədbir 70-ci illərdə davam etdiyindən Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi Azərbaycan kənd rayonları üçün xeyli miqdarda kadr hazırlamağa müvəffəq oldu. Bütün rayon kitabxanalarını, həmçinin böyük kənd kitabxanalarını ali təhsilli kitabxanaçı kadrlarla təmin etmək mümkün oldu. Bir qayda olaraq müsabiqədənkənar təhsil alan tələbələr universiteti bitirdikdən sonra istisnasız olaraq öz rayonlarına, kəndlərinə göndərilirdilər. Bütün bunlar kitabxana işinə H. Əliyev qayğısının böyük nəticəsi idi».

Mədəniyyətimizin mühüm sahələrindən biri olan kitabxana işi sahəsində çox mürəkkəb dövr olan son 10 ildə olduqca ciddi tədbirlər həyata keçirildi. Hər şeydən əvvəl kəskin maliyyə çətinliyinə baxmayaraq kitabxana şəbəkələri qorunub saxlandı. Bu gün fəxrlə demək olar ki, Azərbaycan MDB ölkələri içərisində dövlət kitabxana şəbəkəsini qoruyub saxlayan yeganə respublikadır.

Bu dövrdə böyük öndər Heydər Əliyev bir neçə dəfə M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasına (əvvəllər Azərbaycan Dövlət Kitabxanası) gəlmiş, şəxsi kitabxanasından həmin kitabxanaya xeyli kitab bağışlamış, kitabxana, kitabxana işi və kitabxanaçı haqqında parlaq nitqlər söyləmişdir. Kitabxanaya gəlişlərinin birində o belə demişdir: «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir».

Fərəhləndirici haldır ki, son 15 ildə kitabxana işi haqqında bir çox sərəncamlar və dövlət qərarları verilmiş, 1999-cu ildə Milli Məclis tərəfindən «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin qanunun böyük öndərimiz tərəfindən imzalanması mədəniyyətimizin bu mühüm sahəsinə böyük dövlət qayğısının təzahürüdür.

Beləliklə, xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, ümummilli liderimiz Heydər Əliyevin respublikamıza 34 illik rəhbərliyi dövründə mədəniyyətimizin çox mühüm sahəsi olan kitabxana işi dövlət qayğısı ilə əhatə edilmiş, bu sahə həmişə böyük öndərin diqqət mərkəzində olmuş və həmin illər respublikamızda kitabxana işinin tarixinə inkişaf və tərəqqi dövrü kimi daxil olmuşdur. Məhz bunun nəticəsidir ki, onun sələfi, dövlətimizin hal-hazırkı prezidenti İlham Heydər oğlu Əliyev dahi öndərin tutduğu yolu davam etdirir, bu sahədə ciddi addımlar atır. Onun 20 aprel 2007-ci ildə «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» sərəncamı kitabxanaçılar tərəfindən, o cümlədən ölkənin digər ziyalıları tərəfindən onun növbəti belə addımı kimi qiymətləndirilir və Heydər Əliyev irsinə böyük hörmət hissi olaraq alqışlanır.

## ƏDƏBİYYAT


1. «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2007. – 21 aprel.
2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev (1923-2003) // Qarapapaqlar: Heydər Əliyev – 85 (xüsusi buraxılış). – 2008. – 10 may. – S. 4-7.
3. Xələfov A. A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı: Azənəşr, 2006. – 312 s.
4. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. – 1999. – 14 mart.
5. Quliyev Ə. Heydər Əliyev haqqında alim sözü // Azərbaycan. – 2008. – №2. – S. 188-189.



## РЕЗЮМЕ

В этой статье говорится и анализируется материал о жизни и о трудовой деятельности нашего национального лидера Гейдара Алиева, о важных проблемах, которые он решил во блага Азербайджана в течение многих лет, будучи во главе государства. Особенно было отмечено и высоко оценено роль Гейдара Алиева в развитии библиотечного дела Азербайджана, и о его заботе библиотекарям и ученым которые работали в области библиотечного дела.



## SUMMARY

In this article is spoken and analyzed the material about a life and about labour activity of our national leader Heydar Aliyev, about the important problems which he has solved for the good of Azerbaijan for many years, being in the head of the state. It has especially been marked and highly appreciated Heydar Aliyev's role in development of a library science of Azerbaijan, and about his care to librarians and scientists which worked in the field of a library science.